# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrinin yaradılması və "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında**

"İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1422 nömrəli Fərmanının 1.1-ci və 1.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri yaradılsın.

2. "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının müvafiq olaraq 7.4-cü və 7.8-ci bəndlərinə uyğun apardıqları inventarlaşdırma işlərinin nəticələrini əks etdirən məlumatları 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təhvil versinlər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 19 mart 2022-ci il

№ 105

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 19 mart
tarixli 105 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1422 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır.

1.2. Bu Əsasnamə işğaldan azad olunmuş ərazilərdə tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılması, habelə tikililərin sökülməsi sahəsində dövlət orqanlarının (qurumlarının) çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə yaradılan tikililərin müvəqqəti reyestri (bundan sonra – Reyestr) ilə bağlı məsələləri tənzimləyir.

1.3. Reyestrdə müvafiq tikililərin mövcud vəziyyəti (o cümlədən tikilinin istismarına icazə), həmin tikililərdə baş verən dəyişikliklər (məsələn, yenidənqurma, bərpa, təmir işləri), həmçinin həmin tikililərin sökülməsi barədə məlumatlar əks olunur.

1.4. Reyestrin tərtib edilməsi və aparılması Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən (bundan sonra – qeydiyyat orqanı) dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

1.5. Reyestr elektron qaydada, xüsusi olaraq yaradılmış informasiya resursu vasitəsilə aparılır. Reyestr və müvafiq informasiya resursu Azərbaycan Respublikasının mülkiyyətidir.

1.6. Reyestr Azərbaycan Respublikasının dövlət dilində aparılır.

## 2. Reyestrin strukturu

2.1. Reyestrin strukturu aşağıdakı bölmələrdən ibarətdir:

2.1.1. 1-ci bölmə - ilkin inventarlaşdırma işlərinin aparılması anında tikililərin vəziyyəti;

2.1.2. 2-ci bölmə - tikililərdə dəyişikliklər (məsələn, yenidənqurma, bərpa, təmir işləri), həmçinin söküntü niyyəti barədə məlumatlar;

2.1.3. 3-cü bölmə - fərdi yaşayış evlərinə münasibətdə müvafiq dəyişikliklər və söküntü barədə məlumat, digər tikinti obyektlərinə münasibətdə isə istismara icazə məlumatları, həmçinin söküntü barədə məlumatlar.

2.2. Reyestrin 1-ci bölməsinə aşağıdakı məlumatlar daxil edilir:

2.2.1. tikilinin yerləşdiyi rayon və yaşayış məntəqəsi (şəhər, kənd, qəsəbə);

2.2.2. tikilinin növü (fərdi yaşayış evi, qeyri-yaşayış binası, yaşayış binası və s.);

2.2.3. tikilinin məqsədli təyinatı (yaşayış, ticarət, istehsal, xidmət, abidə və s.);

2.2.4. tikilinin yerləşdiyi torpaq sahəsinin döngə nöqtələrinin koordinatları və ünvanı (mövcud olduqda);

2.2.5. tikilinin yararlılıq vəziyyəti (yararlı, qismən yararlı və yararsız);

2.2.6. tikilinin kateqoriyası (sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan);

2.2.7. tikilinin ümumi sahəsi;

2.2.8. tikinti sahəsi;

2.2.9. tikilinin mərtəbəliliyi (mövcud olduqda);

2.2.10. tikilinin fotoşəkilləri;

2.2.11. inventarlaşdırma nəticəsində tikiliyə verilən xüsusi, təkrar olunmayan inventar nömrəsi;

2.2.12. qeydlər.

2.3. Reyestrin 2-ci bölməsinə aşağıdakı məlumatlar daxil edilir:

2.3.1. söküntü niyyətinə dair məlumatlar:

1. müraciət edən orqan (qurum);

2. müraciətin məzmunu;

3. müraciətin tarixi;

4. tikilinin söküntüsü ilə bağlı rəylər haqqında məlumatlar (sökülməsinə rəy tələb olunan tikili kateqoriyasına aid olduğu halda):

- rəyləri təqdim edən orqan (qurum);
- rəylərin təqdim edilmə tarixi;
- rəylərin məzmunu (məqsədəuyğundur, məqsədəuyğun deyil);

5. söküntünün məqsədəuyğun olmaması barədə qeydiyyat orqanının məlumatı;

2.3.2. tikilidə dəyişiklik niyyətinə dair məlumatlar:

1. müraciət edən orqan (qurum);

2. müraciətin məzmunu;

3. müraciətin tarixi.

2.4. Reyestrin 3-cü bölməsinə fərdi yaşayış evlərinə münasibətdə müvafiq dəyişikliklər və söküntü barədə məlumatlar, digər tikinti obyektlərinə münasibətdə isə istismara icazə məlumatları, həmçinin söküntülər barədə məlumatlar daxil edilir.

2.5. Sökülməsi qadağan edilən tikililər kateqoriyasına aid edilmiş tikilinin sökülməsi ilə bağlı müraciətlər elektron informasiya resursu tərəfindən qəbul edilmir.

## 3. Tikililərlə bağlı həyata keçirilmiş dəyişikliklər və söküntü barədə məlumatların Reyestrə daxil edilməsi qaydası

3.1. Tikililərlə bağlı dəyişikliyin həyata keçirilməsini və söküntü işlərinin aparılmasını nəzərdə tutan dövlət orqanı (qurumu) (bundan sonra – qurum) dəyişiklik (məsələn, yenidənqurma, bərpa, təmir işləri) və söküntü niyyətinin Reyestrdə əks olunması məqsədilə elektron informasiya resursu vasitəsilə aşağıda qeyd olunan qaydada qeydiyyat orqanına müraciət edir:

3.1.1. tikilidə dəyişiklik niyyəti barədə məlumatın Reyestrə daxil edilməsi üçün qurum Reyestrdə tikilinin inventar nömrəsini seçir, daha sonra müvafiq müraciəti Reyestrin 2-ci bölməsinə (2.3.1-ci yarımbəndin 5-ci abzası istisna olmaqla) daxil edir;

3.1.2. müraciət söküntü işlərinin həyata keçirilməsi ilə bağlı olduqda qurum Reyestrə daxil olaraq, tikilinin inventar nömrəsini seçir, daha sonra əsaslandırılmış müraciəti Reyestrə daxil edir. Tikili söküntüsü mümkün olan tikili kateqoriyasına aid olduğu halda, həmin müraciət avtomatik qaydada qeydiyyat orqanına göndərilir.

3.2. Tikili sökülməsinə rəy tələb olunan tikili kateqoriyasına aid olduğu təqdirdə isə bu Əsasnamənin 3.1.2-ci yarımbəndində qeyd olunan müraciət elektron informasiya resursu vasitəsilə avtomatik qaydada Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazi üzrə fəaliyyət göstərən xüsusi nümayəndəsinə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə göndərilir.

3.3. Aidiyyəti qurumlar 3 (üç) iş günü müddətində öz rəylərini Reyestrə daxil edirlər. Rəylər aşağıda qeyd olunan məzmunlardan birində olmalıdır:

3.3.1. tikilinin sökülməsi məqsədəuyğun hesab olunur;

3.3.2. tikilinin sökülməsi məqsədəuyğun hesab olunmur (səbəbi göstərilməklə).

3.4. Rəylərin hamısı müsbət olduğu təqdirdə, tikilinin sökülməsinin məqsədəuyğunluğu haqqında məlumat sistem tərəfindən avtomatik olaraq Reyestrə daxil edilir, həmçinin quruma bu barədə bildiriş göndərilir.

3.5. Rəylərdən bir və ya bir neçəsi mənfi olduqda isə qeydiyyat orqanı tərəfindən tikilinin sökülməsinin məqsədəuyğun olmadığı haqqında məlumat Reyestrə daxil edilir, həmçinin quruma bu barədə bildiriş (mənfi rəylər də əlavə olunmaqla) göndərilir. Rəy mənfi olduqda, qurum tərəfindən əlavə əsaslandırma təqdim edilməklə yenidən müraciət oluna bilər.

3.6. Fərdi yaşayış evlərinə münasibətdə dəyişikliklər, həmçinin söküntü işləri aparıldıqdan, digər tikinti obyektlərinə münasibətdə isə istismara icazə sənədi alındıqdan və ya söküntü aparıldıqdan sonra bu barədə məlumatların Reyestrə daxil edilməsi üçün qurum Reyestrdə tikilinin inventar nömrəsini seçir, daha sonra müvafiq müraciəti Reyestrin 3-cü bölməsinə daxil edir.

3.7. Reyestrə daxil edilmə tarixləri müvafiq məlumatların sistemə işlənildiyi tarixə uyğun olaraq avtomatik qaydada verilir.

## 4. Reyestrin istifadəçiləri

4.1. Aidiyyəti dövlət orqanlarının (qurumlarının) Reyestrdən istifadə edəcək səlahiyyətli əməkdaşları həmin orqanların (qurumların) qeydiyyat orqanına yazılı müraciəti əsasında müəyyən edilir.

4.2. Səlahiyyətli əməkdaşlar Reyestrə daxil olarkən qeydiyyat orqanı tərəfindən verilən xüsusi qorunan şifrə və istifadəçi adı ilə təmin edilirlər.

## 5. Reyestrdəki məlumatların mühafizəsi

5.1. Reyestrdə saxlanılan məlumatların əldə olunması, emalı, ötürülməsi və ya istifadəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 6. Reyestrdəki məlumatlara düzəliş

6.1. Qeydiyyat orqanı Reyestrdə saxlanılan məlumatlarda hər hansı səhv aşkar etdiyi təqdirdə, 1 (bir) iş günü müddətində həmin səhvin aradan qaldırılmasını təmin etməlidir.